AZƏRBAYCAN RESPUBLİKASI

MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI

ELMİ-METODİKA ŞÖBƏSİ



**Şair, ədəbiyyatşünas, professor Mikayıl Rəfilinin**

**120 illik yubileyi münasibətilə**

# "Sönən təbəssüm ölən bir ulduzdur"

**(metodiki vəsait)**

**B A K I – 2015**

**Redaktor:** **Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**

# B Ö L M Ə I

## HƏYAT VƏ YARADICILIĞI:

**Cəmi 53 il ömür sürmüş ədəbiyyatşünas alim Mikayıl Rəfili görkəmli pedaqoq, tərcüməçi, tənqidçi, şair və sənətşünas idi. Adətən onun haqqında yazanlar Mikayıl Rəfilini ədəbiyyatşünas alim kimi təqdim edirlər. Çoxşaxəli yaradıcılıqla məşgul olan Mikayıl Rəfili həm də mükəmməl mətbuat xadimi, böyük yurnalist, sənətşünas idi.**

Azərbaycan ədəbiyyatının korifeylərindən biri ədəbiyyatşünas, tərcüməçi, şair, natiq, pedaqoq Mikayıl Rəfilinin dünyasını dəyişdiyi gündən 57 il ötür. Əgər yaşasaydı, elə həmin gün aprelin 25-də yüz iyirmi yaşı olacaqdı. Ömür sürdüyü əlli yeddi illik həyatını filoloji biliklərin öyrənilməsinə, tədqiqinə, təbliğinə sərf edən alim Azərbaycanda ədəbiyyatşünaslığın inkişafında, ədəbiyyat tarixinin araşdırılmasında, Qərb-Şərq ədəbiyyatı və ədəbi şəxsiyyətlərin tanıdılmasında, sərbəst şeir yaradıcılığında, tərcüməçilik məharətinin nümayişində və nəhayət, pedaqoji ustalığında əvəzi olmayan yüksəlişə ucalmış, yalnız təqdirlərin şirinliyi deyil, tənqidlərin acısını da dadmışdır.

Mikayıl Rəfili Azərbaycan ədəbiyyat tarixinin, milli mədəniyyətin, ictimai, ədəbi-bədii fikrin çox maraqlı nümayəndələrindən biri olub. Onu təkcə doğma vətənində deyil, keçmiş sovetlər birliyinin çox yerlərində də dərin elmi təfəkkürə malik alim kimi tanıyırdılar. Böyük istedad sahibi olan Mikayıl Rəfili dövrünün bəlalarını çəkmiş, təzyiqlərə, represiyalara, təqiblərə, isdən çıxarılmalara, qarayaxmalara məruz qalmışdır. Bununla yanaşı dəfələrlə tariflər eşidən, qoldantutmalar görən, xeyirxahlıqlarla üzləşən insan olmuşdur. Bir tərəfdən ziddiyyətli fikirlər, münasibətlər, ağır hökmlər üstünə hücum çəkib, digər tərəfdən də böyük nailiyyətlər qazanıb.

M. Rəfili orijinal və bənzərsiz şair idi. M. Rəfilinin yaradıcılıq dövründə beş şeirlər kitabı nəşr olunmuşdur, amma sonralar şair kitab nəşr etdirməyə elə də meyl göstərməmişdir. Şairin "Pəncərə" adlı ilk şeirlər kitabı hələ iyirmi dörd yaşında olarkən nəşr olunmuşdur. 1930-cu ildə "Lirik şeirlər", 1936-cı ildə isə rus şairi A. Tarkovskinin tərcüməsində şeir və poemalardan ibarət "Pesni o qorodax" kitabı Moskvada işıq üzü görmüşdür. O, şair olaraq şablon poeziya şərtlərindən həm məzmunda, həm də formada qaçmağa çalışmış və buna nail ola bilmişdir.

M. Rəfili istedadlı ədəbiyyatşünas alimdir. Onun saysiz-hesabsiz ədəbi tənqidə, ədəbiyyat nəzəriyyəsinə, ədəbiyyat tarixinə dair Azərbaycan və rus dilində yazılmış məqalələri, kitabları öz dövründə mövcud boşluğu doldurmaq, elmi

dəyərincə isə ədəbiyyatşünaslığı, ədəbiyyat tarixini inkişaf etdirmək, zənginləşdirmək baxımından çox böyük əhəmiyyət daşıyır. Həm də o, həmişə özünəməxsus olmağa, yenilikçiliyə, orginallığa səy etmişdir. Onun qələmindən çıxmış “Sərbəst şeir haqqında ilk söz”, “Mədəni ədəbiyyat yolunda”, “Ədəbi irsə diqqət”, “Nizami Gəncəvi”, “M.F.Axundov və siyasi-fəlsəfi görüşləri”, “Azərbaycan xalqının zəngin ədəbi keçmişini öyrənək”, “Midiya dövləti”, “Zülmət içində bir nur” (Ölülər” pyesi haqqında ), “Vis və Ramin problemi”, “Nizami”, “M.F. Axundov” “Mirzə Şəfi və dünya ədəbiyyatı” və digər kitablarında, onlarla məqaləsində qaldırılmış problemlər digər kitablarında, bu gün də aktualdır və yeni araşdırılma həllini gözləyir.

Eləcə də Avropa və rus ədəbiyyatına aid əsərləri öz yüksək dəyərini saxlayan sənət örnəkləridir. Yalnız minlərlə oxucu onun əsərləri vasitəsi ilə fransız, alman, amerikan, rus ədibləri haqqında məlumat almışdır. Aleksandr Puşkin, Maksim Qorki, Vladimir Mayakovski, A. Serafimoviç, Taras Şevçenko, A.P.Çexov, N.V.Qoqol, Lev Tolstoy, A.S. Qriboyedov, Viktor Hüqo, M.Servantes və digər dünya ədiblərinin fəaliyyəti, əsərləri haqqında ilkin elmi məlumat Azərbaycan ədəbiyyatına Mikayıl Rəfili yaradıcılığından süzülüb gəlmişdir.

Mikayıl Rəfili yüksək sənətkarlıq səviyyəsində dayanan tərcüməçiliyi ilə Azərbaycan tərcümə ədəbiyyatına töhvələr vermişdir. Minlərlə gənc “Gülən adam”, “Səfillər”, “Madam Bovari” kimi şedevr əsərləri onun tərcüməsində oxumuşdur.

Mikayıl Rəfili həm də alovlu natiq idi. Azərbaycan və rus dillərində o qədər məzmunlu, təsirli danışırdı ki, onu dinləyən hər kəs natiqlik ustalığına valeh olurdu. Onun Nizaminin yubileyində, 1934-cü ildə SSRİ yazıçılarının qurultayında və digər elmi yığıncaqlardakı nitqləri uzun müddət xatırlanan və yaddaşlarda iz salan mədəni hadisəyə çevrilmişdir.

Mikayıl Rəfili təkcə şifahi nitqi ilə deyil, rus dilində yazdığı əsərlərlə Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyətini dünya oxucuları dairəsinə çixara bilən xidmət sahibidir. Onun yüz əlliyə yaxın məqaləsi və ondan artiq kitabı rus dilində Moskva və Bakı nəşrlərində sərhədləri aşmışdır. Bu qəbildən xüsusilə “Nizami-epoxa, jizn, tvorçestvo” (1941), Mirza Şafi v mirovoy literature”(do naçalo XIX veka) (1941), “Nizami Qendjevi i eqo tvorçestva” (1947), “Nariman Narimanov –vıdayuşaya revolusioner i pisatel” (1957), “M.F.Axundov-jizni tvorçestvo” (1957) kimi əsərlərini qeyd etmək olar.

Mikayıl Rəfili böyük ürək sahibi, haqq və ədalət meyarlı ustad müəllim idi. Onu bu cəhətdən sadəcə səciyyələndirmək mümkün deyil. Mikayıl Rəfili əlçatmaz

oldugu qədər də sadə və səmimi idi. Ədaləti, haqqı, elmi həqiqəti Allah qədər sevirdi. Elm, sənət zirvəsində dayanan bu dahi şəxsiyyət qüdrətli, əzabkeş, sənət fədaisi olanlarla nəfəs alır, onları gənclərə tanıtmağa çalışırdı.

M. Rəfili Azərbaycan intibahının yaradıcıları Xaqanini və Nizamini ürəkdən sevir, onların yaradıcılığına xüsusi rəgbətlə yanaşırdı. Onun "qızıl dövr" adlandırdığı XII əsrdə yetişən bu iki nəhəng sənətkarı iki humanist şairi, farsca yazmalarına baxmayaraq, həyati gerçəkliyə uyğun olaraq azəri oğlu kimi tanıması da monoqrafiya müəllifinin diqqətindən kənarda qalmamışdır.

Sükütün sonu varsa, ümidin sonu yoxdur.

Bir ümid ki, parladı dərin bir eşqən

sönməz . Yalan və iftira, məkr, şeytənət

İnsan çürüntüsilə məşq edən

İnsanlar heç zaman ümid ilə yanan

Bir təmiz qəlbli

Yenəməz.

Nə qəm, gərçə bütün dostlar ağ olsa,

Gərçə insan çirkabı ag sinəyə dağ olsa.

Toxda varsa qəlbində yeni günə inam,

Ümid sonsuz və iftira qıcırdır inan.

## B Ö L M Ə II

## YUBİLEY TƏDBİRLƏRİNİN KEÇİRİLMƏSİ:

Qısa ömründə elə böyük yaradıcılıq uğurlarına imza atıb ki, bu gün onun yaşadığı dövrə, üzləşdiyi çətinliklərə, mübarizə ilə dolu həyatına boylananda heyrətlənməyə bilmirsən. Mikayıl Rəfili Azərbaycan ədəbiyyat tarixinin, milli mədəniyyətin, ictimai, ədəbi-bədii fikrin çox maraqlı nümayəndələrindən biri olub.

Mikayıl Rəfili görkəmli Azərbaycan tənqidçisi və ədəbiyyatşünasıdır. O, klassik və müasir ədəbiyyata həsr olunmuş çoxlu məqalələrin, monoqrafiyaların müəllifi olmuşdur. Onun tədqiqatlarının mühüm bir qismi Nizami Gəncəviyə və M.F.Axundova həsr olunmuşdur. Lakin M. Rəfili 20-illərdə daha çox şair kimi tanınmışdır. O, yaradıcılığa da şeirlə başlamışdır. Saglığında "Pəncərə" (1929), "Lirik şeirlər" (1930), "Yeni tarix" (1934), "Durna" (1936), "Şəhərlərin mahnısı" (1939) şeir topluları çapdan çıxmışdır.

M.Rəfilinin poeziyasında böyük şəhər motivi əsas, aparıcı mövzunu təşkil edirdi. Bu poeziya yalniz mövzu və motiv yeniliyi ilə deyil, sərbəst poetik strukturu, obrazlılığı emosional və intelektual zənginliyi ilə də fərqlənirdi.

M.Rəfili ziddiyyətlərlə dolu bir dövrdə yaşayıb yaratmışdır. O dövrün əksər şairləri kimi, M.Rəfili də kommunist ideologiyasını tərənnüm etmiş, onun simvolları haqqında çoxlu şeirlər yazmışdır.

Cağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən olan şair, ədəbiyyatşünas, tənqidçi , professor Mikayıl Rəfilinin keşməkeşli və şərəfli ömür yoluna bir daha nəzər salmaq üçün kitabxanada bir sıra təbdirlərin keçirilməsi nəzərdə tutulmuşdur. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Mikayıl Rəfilinin yubileyi ilə bağlı kitab müzakirəsi, oxucu konfransı, şeir müsabiqəsi, sual-cavab gecəsi, ədəbi-bədii gecə və s. kimi tədbirlərin keçirilməsi vacibdir. M.Rəfili yaradıcılığı ilə oxucuları yaxından tanış etmək üçün ilk əvvəl kitabxanada kitab sərgisinin keçirilməsi nəzərdə tutulmuşdur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn; "Professor Mikayıl Rəfili", "Milayıl Rəfili-120", "Unudulmaz müəllim", "Əzəmətli və nisgilli bir ömrün güzgüsü", Şair Rəfili və yaxud "Bu gün sevməsələr də, yarın sevərlər məni..." və s. Sərginin nümunəsini veririk:

1. **Başlıq.**
   **"Mikayıl Rəfili-120"**
2. Mikayıl Rəfilinin portreti.
3. Görkəmli insanların şair Mikayıl Rəfili haqqında söylədikləri sitatlar.

4. Mikayıl Rəfilinin kitablarının nümayişi.
5. Dövrü mətbuatda çap olunan məaqalələrin kartotekası.

Şeir parçası.

İnsan ömrü də bənzər ilin fəsillərinə
Ömrün baglarında açar bəzən bənövşələr.
Bəzən də payız kimi tökülər yarpaqları
Qış gecələri kimi susar ya inlər.
Ya da buz bağlayan arzu yerinə
Kül altında sızıldayan kösöylərdən
qalar son ocaqları...

Sitatlar:

1. M.Rəfili mütəfəkkir idi, düşünən adam idi, laqeyidlikdən, biganəlikdən, hər cürə rəviyyədən uzaq, ehtiraslı şəxsiyyət idi və deməli kifayət dərəcədə mürəkkəb, ziddiyyətli, qəliz daxili aləmi olan insan idi.

   Anar
   Xalq şairi, yazıçı

2. Onu tanıyanlar yaxşı bilir ki, professor M.Rəfili həddindən artıq zəhmətsevər bir alim idi. O, həmişə narahat idi, həmişə axtarır, yazır, tərcümə edirdi.

   Paşa Əfəndiyev

   Filologiya elmləri doktoru, professor

3. Unudulmaz Mikayıl Rəfilinin poeziyasından çəkilən bir ləçəkdə deyilir: "Sükutun sonu varsa, ümidin sonu yoxdur". Və bu ümid dolu səhərlər onu əbədiyyətə qovuşdurdu. Mikayıl Rəfili unudulmaz şairimiz Rəsul Rzanın söylədiyi kimi, ədəbiyyatımızda, mədəniyyət tariximizdə bu gün də var, yarın da...

   Flora Xəlilzadə
   Jurnalist, publisist

4. Mikayıl Rəfili qabaqcıl bir alim, müasir bir insan idi.

   Şamil Salmanov

   Tənqidçi, ədəbiyyatşünas

Tədbirin sonunda sərgi qarşısında kitabxanaçı Mikayıl Rəfilinin həyat və yaradıcılığı haqqında bir qədər məlumat verir.

Mikayıl Rəfili dünyaya göz açdığı Qasim İsmayılov rayonunun Borsunlu kəndində orta məktəbi, sonra isə Gəncədə əmək məktəbini bitirmişdir. Bir müddət

o, Bakı Universitetinin  Şərqiyyat fakültəsində təhsil almiş, ardınca da Moskva Universitetinin ədəbiyyat və incəsənət fakültəsini uğurla başa vurub Bakıya qayıtmışdır. “Maarif və mədəniyyət” jurnalında məsul katib, “Azərnəşr”də şöbə müdiri, “Bakinski raboçi” qəzetində əməkdaş olmuşdur. 1935-ci ildə SSRi Elmlər Akademiyasının Leninqrad şöbəsində doktoranturanı bitirmişdir. 1936-ci ildə “Türk qərbçiləri”adlı namizədlik disertasiyası müdafiə etmişdir. Bakıda elmi-tədqiqatla, pedaqoji fəaliyyətlə məşğul olmuş, Bakı Dövlət Universitetində, Azərbaycan Pedaqoji İnstitutunda mühazirələr oxumuşdur. Ömrünün 25 ilini ADPU-da keçirmişdir. 1934-cü ildə SSRİ yazıçılarının I qurultayının iştirakçısı olmuş və tədbirdə çıxış etmişdir.1944-cü ildə isə Tiflisdə “XVI əsrə qədər Azərbaycan ədəbiyyatı” mövzusunda doktorluk dissertasiyası müdafiə etmişdir.

M.Rəfili Azərbaycanda sərbəst şeirin banilərindəndir. Akademik Məmməd Arif şair M.Rəfili haqqında demişdir: “Mikayıl Rəfili ruhən şair idi, onun deməyə sözü vardı. Bir şair kimi, xüsusən, yaradıcılığının ilk dövründə yazdıqları hər seydən əvvəl öz səmimiliyi ilə diqqəti cəlb edirdi”.




Mikayıl Rəfilinin yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsində Mikayıl Rəfilinin 1997-ci ildə Azərnəşr tərəfindən işıq üzü görmüş “Sönən təbəssüm ölən bir ulduzdur” adlı kitabının müzakirəsini keçirmək olar. Tədbirə bir çox tanınmış şair və yazıçıları dəvət etmək olar. Qeyd etdiyimiz kimi, Mikayıl Rəfili ziddiyyətlərlə dolu bir dövrdə yaşayıb yaratmışdır. O dövrün əksər şairləri kimi, M.Rəfili də kommunist ideologiyasını tərənnüm etmiş, onun simvolları haqqında çoxlu şeirlər yazmışdır. Kitabın tərtibçiləri şairin yaradıcılığı barədə bütöv təsəvvür yaratmaq üçün həmin ruhlu şeirləri də bu kitaba daxil etməyi məqsədəuyğun bilmişlər.Artıq qeyd etdiyimiz M.Rəfilinin bir şair kimi fəaliyyəti əsas etibarilə 1926-1936-cı illəri əhatə edir. Şeir kitabları da bu müddət ərzində nəşr olunmuşdur. Sonrakı dövrlərdə, axırıncı kitabı “Durna” 1936-cı ildə  çapdan çıxandan sonra M.Rəfilinin şeir topluları daha işıq üzü görməmişdir. Hərçənd ki, arabir  bəzi  şeirləri ilə mətbuatda çıxış etmişdir. Şairlikdən tamam uzaqlaşmamışdır.




M. Rəfili haqqında şair, dramaturq, publisist və tədqiqatçı, R. Rza mükafatı laureatı Teyyub Qurban”Həqiqət olduğu kimi” kitabını yazmışdır. Kitabda ilk dəfə olaraq M. Rəfilinin fəaliyyəti indiyədək oxuculara məlum olmayan arxiv materialları əsasında

göstərilir, XX əsrin böyük mütəfəkkiri və pedoqoqlarından biri olmuş elm dühasına həyatından söhbət açılır.

M.Rəfilinin şeirləri bir sıra mövzu, poetik ruh və dünyaduyumu, forma və poetika yenilikləri, bədii ifadə tərzi cəhətdən seçilirdi, diqqəti daha artıq cəlb edirdi. Lakin bununla M.Rəfili həm də öz dövrünün şairi olmuşdur və bu cəhət də onun şeirlərində çox aydın şəkildə duyulmaqdadır. O da başqa körkəmli həmkarları və müasirləri, məsələn, S.Vurğun, S.Rüstəm, M.Müşfiq, R.Rza ilə birlikdə, yeni novator milli poeziyanı yaradarkən və inkişaf etdirərkən o illərin zəruri sayılan, sovet poeziyasının prinsiplərini, mövzularını əks etdirən əsərlər, şeirlər yazmaq məcburiyyətində qalmışdır.

Sonda **"Sönən təbəssüm ölən bir ulduzdur"** adlı kitabdan **"Qızıl durnalar"** adlı şeirini oxucular səsləndirir.

**Gəldim**

**Uzaq, sıcaq bir eldən,**

**Sıcaq cənub elindən**

**Uzaq, soyuq şimala...**

**Gəldim**

**Bir xəstə cocuq kimi**

**Daşıyaraq qəlbimi...**

**Daşıyaraq, o bir xəstə cocuq kimi qəlbimi!..**

**Dərin dərə dibində**

**Uzaq dırnaqlı barmaqlarımı**

**Soxaraq göz bəbəklərimə,**

**Cənazələr**

**"Dinlə" deyirdi, "saqqallı mazilərin**

**Saqqal telli sazında**

**İnləyən türküsünü"...**

**Çıxdım**

**Dərin dərə dibindən;**

**çıxdım çətin bir yola!**

**Zənn etmə ucacağam**

**Qanatlı buludların**

**Yumşaq qucağında..!**

Görkəmli tənqidçi, ədəbiyyatşünas, professor, şair Mikayıl Rəfilinin anadan olmasının 120 illiyi ilə əlaqədar F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlər siyahısına ədəbi-bədii gecənin də salınması və keçirilməsi məqsədəuyğun olardı. Ədəbi-bədii gecənin keçirilməsində məqsəd oxucuları Mikayıl Rəfili yaradıcılığı ilə bir daha yaxından tanış etməkdir. Bunun üçün kitabxanaçı tədbirə Mikayıl Rəfili yaradıcılığı ilə məşğul olan insanları, şair və yazıçıları, ədəbiyyat müəllimlərini dəvət edə bilər. "Şair, tənqidçi, ədəbiyyatşünas Mikayıl Rəfili" adlı ədəbi-bədii gecənin nümunəsini veririk.

**I aparıcı:**

Öz təmkini, ağlı, düşüncəsi, ədəbi axtarışları, mülahizələri, habelə müəllimlik fəaliyyəti, alimlik qabiliyyəti, yaradıcılıq ənənələri ilə mənəvi dəyərlərin ucalığında dayana bilməsi ona imkan yaradıb ki, ən ağır böhtanların hədəfində də öz üstünlüyünü, ləyaqətini saxlaya bilsin. Azərbaycan poeziyasında sərbəst şeirin banisi sayılan Mikayıl Rəfili əbəs yerə yazmırdı: "qızaran üfüqlərin mən ilk şairiyəm". Onun yeniliyə can atması, ədəbi fikirlərdəki özgünlüyü, milli düşüncəyə bağlılığı heç də həmişə rəğbətlə qarşılanmırdı. O tənqid selinin qarşısında dağlar kimi dayanmışdı. İşıqlı təfəkkürü ilə həmkarlarının çoxundan seçilən Mikayıl Rəfili necə uzaqgörənliklə yazırdı: "Bu gün sevməsələr də, yarın sevərlər məni..." Mikayıl Rəfili nə və niyə yazdığını yaxşı bilirdi. Keçirdiyi xiffətlər, üzləşdiyi ağır məqamlar, pərişan ovqatlı şeirlərində də görünür: "bir müsavat əsgəri deyə-deyə yordular məni". Bu həqiqət idi. Amma içindəki nəciblik şeirlərinə əbədilik libası geyindirməkdə idi. Əslində Tanrı ona qeyri-adi bir istedad bəxş etmişdir. Bu mənada özünün bir etirafı da maraqlıdır: "Tanrı məni şair kimi yaratmışdı, tale məni alim etdi".M.Rəfili əlçatmaz olduğu qədər də sadə və səmimi idi.

**II aparıcı:**

M.Rəfili 1905-ci il aprelin 25-də Goranboy rayonunun Borsunlu kəndində varlı kəndli ailəsində anadan olmuşdur. Gəncədə klassik gimnaziyada təhsil alan Mikayıl hələ erkən yaşlarından bədii yaradıcılıqla məşğul olmuş, mətbuatda “Mikayıl Rəfizadə” imzası ilə şeirlərini dərc etdirmişdir. “Bakinski raboçi”, “Hücum”, “Qabaqcıl” yurnallarında çalışan M.Rəfili sonralar bir çox yurnalların da redaksiya heyətinin üzvü olub. Həm yurnalistik fəaliyyəti, həm də tərcümə ilə məşğul olan Mikayıl Rəfili bu illərdə ədəbi axtarışlarını da mükəmməl davam etdirib. Onun Azərbaycan ədəbiyyatı tarixinə göstərdiyi xidmətin analoqu yoxdur. Azərbaycan oxucusu Viktor Hüqo, A.S.Puşkin, L.N. Tolstoy, O.Balzak yaradıcılığı ilə məhz Mikayıl Rəfili vasitəsilə tanış olub. Müxtəlif illərdə çap edilən “Səfillər”, “Gülən adam”, “Paris Notrdam küçəsi” (V.Hüqo) kimi məşhur və möhtəşəm əsərləri məhz Mikayıl Rəfili tərcümə edib. Mikayıl Rəfilinin tərcüməçilik fəaliyyəti bir elmi institutun görəcəyi sanballı işlərlə ölçülə bilər.

(Oxucular səhnəyə daxil olub M.Rəfilinin Qarlı Gəlin adlı şeirini söyləyirlər )

**Kollara sığınan ürkmüş bir turac**

**Ovçu vursun deye düz şuma çıxdı.**

**Gümüş qar papağı geymiş bir gözəl**

**Əski xatirə tək qarşıma çıxdı.**

**Yada düşdü yenə qeyb olan xəyal,**

**Alışan günlərim, cavanlıq vaxtı.**

**Könlümə sığmadı gördüyüm cəlal,**

**Oxşadım gurlayan qarlı paytaxtı.**

**Sən məni sevərdin, ey qarlı gəlin,**

**Dağlar ətəyində, aran düzündə...**

**İndi görmür məni ala gözlərin**

**Çırağban şəhərin ag gündüzündə**

**I aparıcı:** M.Rəfili şeirlərində poetik vərdişlərin, ənənəvi nəzm qaydalarının müqavimətini qırmağa, şərtiliklərdən azad və sərbəst bir formada yazmaq istəyirdi. Bu, onda ötəri bir meyl deyildi, dərin daxili bir tələbat, daxili bir yaradıcılıq duyğusu idi və bu hiss onu təbii olaraq sərbəst şeirə gətirdi. 20-illərdə poeziyanı inqilabi gerçəkliyin təsiri ilə dəyişdirib yeniləşdirmək təşəbbüsləri göstərilirdi. Bu təşəbbüslər içərisində sərbəst şeir və ən qabarıq cərəyanı özündə təmsil edirdi. Bu şeir hərəkatının öz qarşısına qoyduğu vəzifələr və məqsədlər geniş və perspektivli olduğu kimi həm də mübahisəli və qeyri-adi idi. O, bəzən özünü bütün milli poetik irsə qarşı qoyur və ənənəni inkar etmək təşəbbüslərinə qoşulur, poeziyanın böyük dərslərindən və təcrübəsindən üz döndərirdi.

Sərbəst şeirin bu meyllərini öz yaradıcılığında parlaq və toplu şəkildə əks etdirən M.Rəfili oldu. O, yalnız sərbəst şeirin nümunələrini verməklə kifayətlənmir, eyni zamanda onun nəzəriyyəçisi kimi çıxış edir; məqalələrində sərbəst şeirin mahiyyətini və yaradıcılıq mövqeyini aydınlaşdırırdı. “Sərbəst şeir haqqında ilk söz”, “Mədəni ədəbiyyat yolunda” məqalələrini M.Rəfili bu məsələlərə həsr etmişdir. Əlbəttə, bu məqalələrdə çox sey düz deyildi, yanlış və birtərəfli qoyulurdu.

(Oxucular səhnəyə daxil olur M.Rəfilinin “Göy maşın” adlı şeirini söyləyirlər)

**Sərin yaz axşamı yola düşərkən,**

**Durmuşduq səninlə platformada.**

**Son dəfə mənimlə sən gülüşərkən,**

**O uzaq sevgimiz düşmüşdü yada.**

**Sən mənim ilk sevgim, göyərçinimdin,**

**Əcayib əllərə mən verdim səni.**

**Bir kərrə demədim, deyirəm indi,**

**Mən, ey tutgun günəş, sevirdim səni.**

**Bir sönən baxışla baxdın üzümə,**

**Nə yəs, nə təəssüf, nə gizli həsrət.**

**Vida edərkən sən qaçan ömrümə**

**Tərpəndi göy maşın, etdi hərəkət.**

**II aparıcı:** Şair Mikayıl Rəfilidən bu şeirləri haqqında soruşduqda, o, cavab verirdi ki, bu şeirlər mənim ürək çırpıntılarımdır.

Bir sözlə M. Rəfilinin Azərbaycan ədəbiyyatşünaslığı, ədəbiyyat tariximiz sahəsində gördüyü işlər əvəzsizdir. Onun zəngin irsi mədəniyyət tariximizin qiymətli səhifələrindəndir. M.Rəfili bütün elmi fəaliyyəti boyu doğma ədəbiyyatımıza və daha geniş götürsək doğma xalqımıza, onun inkişafina, dünyagörüşünün genişlənməsinə, daha artıq maariflənməsinə, mədəniləşməsinə xidmət etmişdir.

Bənzərsiz istedad sahibi, görkəmli alim, şair, tərcüməçi, ustad müəllim kimi tanıyıb- sevdiyimiz o böyük şəxsiyyətin əbədi dünyasına köçməsindən aprelin 25-də düz 57 il keçir. Anadan olduğu gün tarixdə həyatla vidalaşmağın özü də qəribə, qeyri-adi taledir. Bu da Mikayıl Rəfilinin qismətinə düşdü...

**Ömrün getdi, bəzən ümid, arzu, xəyal içində,**

**Cox çalışdım, çox düşündüm, tez yoruldu cavanlıq.**

**Fəqət qəlbim qatlaşmadı köhnə məlal içində,**

**Qatıq, bəhməz tapmasam da, pendir oldu yavanlıq.**

**Fəqət yolum bir halvanın boğazdakı yolumu?**

**Kim deyir ki, asan tapdım mən indiki yolumu?**

**Ə D Ə B İ Y Y A T   S İ Y A H I S I :**

**İnternetdə: www.google.az**


1. **T.Qurban. Həqiqət olduğu kimi. Bakı.:”Adiloğlu”, 2008.-108 s.**
2. **M.Rəfili.“Sönən təbəssüm ölən bir ulduzdur...” Bakı.: Azərnəşr, 1997.-160 s.**